*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 83-91* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4406.2023.1.83*

# Əsrin ədəbi hərəkatı: altmışıncılıq və altmışıncılar

**Yaşar Qasımbəyli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: yashargasimov@mail.ru

**Annotasiya.** Məqalədə ötən əsrin 50-ci illərinin ortalarından etibarən Sovet İttifaqı xalqlarının ədəbi-mədəni həyatında başlanan böyük milli-mənəvi oyanış və intibahın inkişaf dinamikası nəzərdən keçirilir. Tədqiqatçı Azərbaycan ədəbiyyatında, xüsusən poeziyada geniş əks edən bu yenilənmə proesesini, təbii olaraq, qardaş xalqlar ədəbiyyatı ilə paralel şəkildə təhlil etməyə çalışır. Çünki yenilikçi və döyüşkən rus poeziyasının A.Voznesenski, Yevg.Yevtuşenko, B.Axmadulina, N.Rubtsov, V.Vısotski və bir çox başqaları kimi görkəmli nümayəndələrinin poetik yeniliklərinə həmahəng uğurları o vaxtkı Azərbaycan şeirinin Ə.Kərim, M.Araz, X.R.Ulutürk, F.Qoca, F.Sadıq, V.Səmədoğlu və bir sıra başqa sənətkarlarının da yaradıcılığında müşahidə etmək mümkündür. Rusiya və Azərbaycan altmışıncılarının parlaq nümayəndələri A.Voznesenski və V.Səmədoğlunun vurğuladığı kimi, 60-cı illərdəki milli-mənəvi və mədəni oyanış, həqiqətən, “mikrorenessans” mahiyyətinə malik idi. O dövrün qızğın ədəbi-mənəvi mübarizələrindən 80 ilə yaxın zaman keçməsinə baxmayaraq, bugün həmin ədəbi nəsillərin bədii-estetik xidmətlərini biz minnətdarlıqla dəyərləndiririk. Məqalədə nəzərdən keçirilən poetik mərhələnin estetik miqyası, milli və beynəlmiləl xüsusiyyətləri də nəzərə çarpdırılır.
**Açar sözlər:** Altmışıncılıq, milli-mənəvi və ədəbi oyanış, altmışıncılar, A.Voznesenski, Yevg. Yevtuşenko, B.Axmadulina, Ə.Kərim, M.Araz, X.R.Ulutürk

**Məqalə tarixçəsi:** göndərilib – 12.01.2023; qəbul edilib – 23.01.2023

# Literary movement of century: sixties studies and sixtieths

**Yashar Gasimbeyli**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: yashargasimov@mail.ru

**Abstract.** In the article is studied the development of a great national spiritual awakening and renaissance that began in literary cultural life of people of the Soviet Union in the 50s of the last century. The researcher tries to analyze this renewal process that reflected in Azerbaijani literature, especially in poetry with the literature of brother nations in parallel. Because it is possible to supervise the successes of the prominent representatives of innovative and martial Russian poetry such as A.Voznesensky, Y.Yevtushenko, B.Akhmadulina, N.Rubtsov, VVisotsky and others in poetic innovations in the creativity of a number of other artists of Azerbaijani poetry such as A.Karim, M.Araz, Kh.R.Uluturk, F.Goja, F.Sadig and V.Samadoglu. As the prominent representatives of Russian and Azerbaijani sixtieths, A.Voznesensky and V.Samadoglu states, the national-spiritual and cultural awakening in the 60s really had a “micro-renaissance” essence. Today we gratefully value the artistic and aesthetic services of those literary generations, although

nearly 80 years have passed since the literary and spiritual struggles of that period. In the article is noted also the aesthetic scale and national-international characteristics of the poetic stage.
**Keywords:** sixties studies, national-spiritual and literary awakening, sixtieths, A.Voznesensky, Y.Yevtushenko, B.Akhmadulina, A.Karim, M.Araz, Kh.R.Uluturk

**Article history:** received − 12.01.2023; accepted − 23.01.2023

## Giriş / *Introduction*

Ədəbiyyat tarixinə estetik dünyagörüşü və bədii idealı bir-birinə bənzəməyən ədəbi dövrlər, özünəməxsus qəhrəmanlar və xarakterlər tarixi kimi də yanaşmaq olar. Bu mənada XX yüzilin 60-cı illərində poeziyaya gəlmiş gənc nəslin yaradıcılığını ayrıca və müstəqil bir ədəbi mərhələ kimi dəyərləndirmək məqsədəuyğundur.

Bir neçə on illər ərzində ictimai-siyasi mübarizələr və milli münaqişələr, müxtəlifyönlü və motivli repressiyalar, hərbi-siyasi qətllər burulğanında əzilən, misilsiz əziyyətlər çəkən Sovet İttifaqı imperiyası xalqlarına milli oyanış və intibah sevincini yaşadan altmışıncıların ədəbi fəaliyyətini nəzərə almadan, çağdaş dünyanın mənəvi-mədəni mənzərəsini təsəvvür etmək çox çətindir. Xüsusən Şərqi Avropadan tutmuş Çinə qədər, sabiq Sovet İttifaqının bütün hüdudlarına sirayət edən bu mənəvi-mədəni oyanış cahan miqyasında yeni ictimai-siyasi və estetik dünyagörüşünün boy atmasına imkan verdi. XX yüzilin möhtəşəm və qlobal hadisələrindən sayılan SSRİ-nin dağılması və yeni müstəqil respublikaların yaranması prosesi də genezis etibarilə 60-cı illərdə baş verən ictimai-mənəvi təlatümlərin nəticəsi idi. 90-cı illərin əvvəllərindəki istiqlal sevincləri 60-cı illərdəki milli müstəqillik arzularından doğulmuşdu. O dövrün qızğın ədəbi-mənəvi mübarizələri kontekstində yaxın gələcəyin milli-siyasi konturları formalaşmışdı. Ümumən, XX yüzildəki milli istiqlal təfəkkürlərinin doğuluşu və yetkinləşməsində 60-cı illər əvəzedilməz və misilsiz bir mərhələdir. Doğrudur, istiqlal məfkurəsi və dünyagörüşünün meydana gəlməsi və inkişaf dinamikası bütünlükdə bu yüzilin ümumi ictimai-mədəni gedişatının səmərəsi kimi dəyərləndirilməlidir. Xüsusən əsrin əvvəllərindəki mənəvi oyanış, 20-ci və 30-cu illərin qanlı milli-siyasi mübarizələri, 30-50-ci illərin ədəbi təcrübəsi də müstəqilliyə aparan yollara müəyyən dərəcədə işıq salmışdı. 60-cı illərin və özünəməxsus bir ədəbi hərəkat kimi "altmışıncılığın" müstəsna rolu ondan ibarətdir ki, bu dövrdə təkcə müstəqilliyə can atan mübariz bir nəsil formalaşmadı, eyni zamanda əvvəlki epoxaların və nəsillərin istiqlala yönəlmiş mənəvi enerji və zəhmətləri də birləşdirilərək, yeni zaman müstəvisində təmərküzləşdirilməklə tamamilə təzə və növbəti bir mərhələnin əsası qoyuldu.

## Əsas hissə / *Main Part*

Böyük rus ədəbiyyatşünası Y.N. Tınyanov "Ədəbi fakt" və "Ədəbi təkamül haqqında" kimi fundamental məqalələrində ədəbi dəyişmə və təzələnmə haqqında ciddi mülahizələri irəli sürür. Poetika sahəsində Rusiyanın ən görkəmli mütəxəssislərindən biri yazır: "Ədəbi epoxa, ədəbi müasirlik heç də hərəkətsiz sistem deyil, əksinə həmişə evolyusion tarixi cərgəyə aid anlayışlardır" [11, s.259]. Böyük alimin ədəbi evolyusiya ilə bağlı aşağıdakı fikri də öz mahiyyətinə və ehtiva miqyaslarına görə çox qiymətlidir: "Ədəbi təkamülün əsas anlayışı və əlaməti sistemin dəyişməsidir, burada "ənənələr"lə bağlı məsələ isə təbii ki, başqa müstəviyə keçir. Bax, bu əsas məsələni təhlil etmək üçün öncədən razılaşmaq lazımdır; ədəbi əsər özü bir sistemdir və bütünlükdə ədəbiyyat sistem kimi qəbul edilməlidir" [11, s.272]. XX yüzil Azərbaycan poeziyasına bütöv bir sistem kimi baxsaq, əsrin ortalarından etibarən dəyişmə və təzələnmə əlamətlərinin meydana gəlməsini, getdikcə gücləndiyini, 60-cı illərin yeni bədii epoxanın başlanğıc tarixi olduğunu müşahidə etmək mümkündür.

Bədii fikir tarixindəki dəyişmə və təzələnmənin kökündə nə dayanır? Bu proses hansı mənəvi-estetik qaynaqlardan güc alır? Bədii yaradıcılıqda yenilənmənin əsas meyarı nədir? Görkəmli şeirşünas alim bu suala konkret cavab verir: "Yeni şeir – həyata yeni baxış deməkdir" [11, s.169]. İctimai gerçəkliyə bu yeni münasibət isə hər vaxt və həmişə baş verə bilmir. Yalnız tarixin müəyyən dönəm və mərhələlərində bu yanaşmanı reallaşdırmaq mümkün olur: "Bu cür poetik hadisə və təzahürlər isə yalnız elə aralıq dövrlərdə baş verir ki, o zaman inersiya işləyə bilmir" [11, s.169]. Yuxarıdakı mülahizələrdən çıxış edərək 60-cı illərin bədii gedişatına nəzər salsaq, rus, Azərbaycan və özbək altmışıncılarının yaradıcılığında həyata yeni baxış bucağından yanaşmanın aparıcı mövqeyə malik olduğunu görürük.

Bədii təfəkkürdə poetik özünüifadənin təzəliyi və təravətliliyi hansı estetik keyfiyyətlərinə görə daha çox diqqəti cəlb edir? Yenilik əlamətləri əvvəlcə hansı poetik element və ünsürlərdə özünü büruzə verməyə macal tapır? Ədəbiyyatda, ələlxüsus da poeziyada öncə nəzərə çarpan özünəməxsusluq hansıdır? Bir çox görkəmli poetika mütəxəssislərinin mövqeyi və fikirləri bu cəhətdən üst-üstə düşür. XX yüzilin əvvəllərindəki ümumdünya əhəmiyyətinə malik poetik təcrübələrdən biri bu problemi aydınlaşdırmağa yardım edə bilər: "Poeziyadakı hər bir yenilik, öncə, intonasiyanın təzəliyi və təravətliliyi ilə nəzərə çarpır. Axmatovada özünəxas intonasiya vardı, Mayakovskinin intonasiyası da təzəliyi ilə seçilirdi. Nə zaman ki, intonasiya köhnəlir və nəzərə çarpmamağa başlayır, o vaxtdan etibarən şeirin özü də artıq diqqəti cəlb eləmir" [11, s.179]. Əgər bu nöqteyi-nəzərdən də Azərbaycan və özbək altmışıncılarının lirikasına yanaşsaq, Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Fikrət Sadıq, Fikrət Qoca, Musa Yaqub, İsa İsmayılzadə, Məmməd İsmayıl, Vaqif Səmədoğlu, Hüseyn Kürdoğlu, Nəriman Həsənzadə, Ələkbər Salahzadə və başqalarının poeziyasının da özünəməxsus bədii ahənglərə, təkrarsız intonasiya çalarlarına malik olduğunu müşahidə edirik.

Yarım əsr bundan əvvəl ədəbiyyatda, xüsusən də poeziyada baş verən ciddi keyfiyyət və mahiyyət dəyişmələri təsadüfi deyildi. Böyük imperiyanın mərkəzində, birinci növbədə, rus poeziyasında qabarıq surətdə özünü büruzə verən mənəvi-estetik proseslər bütün müttəfiq respublikalarda bu və ya müxtəlif dərəcədə əks-səda verirdi. Altmşıncıların istiqlal təfəkkürünü şəkilləndirən, xalqımızın tarixinə həsr olunmuş, xüsusən onun mənəvi qüdrətini və qəhrəmanlıqlarını vəsf edən, ana dilimizi və milli adətlərimizi, Vətənimizin böyük keçmişlərini tərənnüm edən əsərləri bu cəhətdən misilsizdir. Bu nəslə mənsub şairlər yaradan və meydana gələn kimi xalqın qəlbində yer alan məşhur əsərlər, eyni zamanda milli azadlıq ruhunu, xalqın istiqlala aramsız can atmalarını bilavasitə və dolayısıyla əks etdirən sənət nümunələri mühüm əhəmiyyətə malikdir.

İstiqlal xəyallı poetik gənclik öz fəal və qızğın mənəvi-estetik axtarışlarında əsrin əvvəllərindəki milli azadlıq mübarizələrinin bədii təcrübəsini ümumiləşdirməklə yanaşı, dünya xalqlarının XX yüzildəki istiqlal və demokratiya uğrundakı amansız və gərgin döyüşlərinin dərslərini də mənimsəməyə can atırdı. Cənubi Asiya, xüsusən, Hind və Çin xalqlarının, Şimali Afrika və Ərəb, Latın Amerikası və Avropa, o cümlədən alman, italyan, ispan və yunan xalqlarının faşist rejimlərinə qarşı uzunmüddətli və qanlı mübarizələrini əks etdirən poetik təcrübələrə yeni poeziyanın həssas münasibətini xüsusi qeyd etməliyik. Müxtəlif xalqlara mənsub milli istiqlal mübarizləri və onları vəsf edənlərin adlarına rus, Azərbaycan və özbək altmışıncılarının yaradıcılığında sıx-sıx rast gəlirik. Y.Yevtuşenko, A.Voznesenski, R.Rojdestvenski, Ə.Kərim, M.Araz, X.Rza, F.Qoca, V.Səmədoğlu, E.Vahidov, A.Aripov, R.Pərfi, C.Kamal və b. məşhur altmışıncılar XX yüzildəki milli istiqlal motivlərinə öz ürəklərini geniş açırdılar. Məsələn, yeni özbək poeziyasının görkəmli nümayəndəsi R.Pərfi Latın Amerikası xalqlarının və Çilinin azadlıq mücahidi və ötən yüzilin ən qüdrətli şairlərindən biri Pablo Nerudanın milli ölüm-dirim mücadilələrindən sonra sağ-salamat və yadigar qalmış yeganə varlıq – Sözlə bağlı yenilməz yaşantılarını öz sanballı kitablarından birinə – məşhur "Qayıdış" toplusuna ("Kaytiş". Ğ.Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti, Toşkent, 1981) epiqraf seçmişdi: "...Onlar bir-birinin ardınca hər şeyi zəbt edirdilər – dinləri, ehramları, qəbilələri, bütləri... hər şey onların özləri ilə daşıdıqları nəhəng kisələrdə yoxa çıxırdı... Onlar rastlarına çıxan hər şeyi yerlə yeksan edərək irəliləyirdilər... "Barbarlara" isə yolüstü onlar çəkmələrdən, saqqallardan, dəbilqələrdən, nallardan tökülən və daş-qaşlar kimi işıldayan sözləri qoyub ge-

dirdilər. O sözlər bizlərdə qalır və parlayırdılar... Dil!.. Biz uduzurduq... Amma bizim bəxtimizə uduş çıxmışdı!.. Onlar bizdən qızılı götürüb və bizə hər şeyi buraxırdılar... Onlar bizə sözləri qoyub gedirdilər...” [10, s.19].

İctimai-siyasi mühitin və münasibətlərin mürəkkəbliyinə baxmayaraq, zamanın amansız maneələrindən aşaraq, ədəbiyyatdakı gənc qüvvələr dərindən anladıqları və inandıqları ən mühüm həqiqətləri ifadə etməyə imkan tapdılar. Ə.Kərimin “İki sevgi”, “Qaytar ana borcunu”, “Mikayıl Müşfiqə”, “Füzuli”, “Şəhidliyin zirvəsi”, “Azad adam”, “Azərbaycan”, “Gəl, Azərim”, “Babəkin qolları”, “Vəsiyyət”, M.Arazın “Anamdan yadigar nəğmələr”, “Günəşi ittiham edənlər”, “Bir axşamın balladası”, “Azərbaycan – dünyam mənim”, “Məndən ötdü qardaşıma dəydi”, “Ağ şəhərli qaralar”, “Eyfel qülləsində”, X.R.Ulutürkün “Hüseyn Cavidə”, “Tamam doğmayan günəş”, “And içirəm”, “Əyilmə”, “Meyar”, “Şəlalə kimi”, “Şeirimizin Babəki”, “Şərqin gözləri”, “Afrikanın səsi”, “Vətən”, “Mənlik”, Erkin Vahidovun “Gənclik divanı”, “Özbəyim”, “Ruhlar üsyanı”, “Gələcəyə məktub”, “Özbəkistan”, “Həqiqət və yalan”, R.Pərfinin “Şair”, “Baxçasaray fontanı”, “Özbəkistan”, “Vətən haqqında Bernd İentsşə məktubum”, “Səmərqənd səmasında”, “Şeiriyyət”, “Pablo Neruda ölümünə”, “Hamlet”, “Osman Nasir”, “Van Qoq”, “Türküstan yaddaşı”, “Viktor Xara”, “Aleksandr Blok”, “Şair qisməti”, A.Aripovun “Mən neçün sevirəm Özbəkistanı”, “Üzbəüz”, “İlğım”, “Cənnət”, “Ana səyyarə”, “Birinci məhəbbətim”, “Sevgi ölümü”, “Anacan”, “Özbəkistan, Vətənim mənim”, “Tənə daşları”, “Nəsillərə məktub”, “Bahar” və pleyadanın yaratdığı başqa onlarla əsərlər XX yüzildə milli-estetik fikrin pərvazından xəbər verirdi. Onlar öz müasirlərini və gələcək nəsilləri oyatmağa, milli şüurumuzda uzun müddət davam edən rezonans yaratmağa nail oldular. Bu, yeni poeziyanın ilkin və sanballı uğurlarından biri idi.

Yeni pleyadanın milli-mənəvi dəyərləri və bədii ənənələri dirçəltmək yönündəki gərgin zəhmətləri diqqətəlayiqdir. Amma milli-bədii təfəkkürün yeni mərhələyə yüksəlişini və söz sənətini zənginləşdirən yeni şedevrlərin yaranmasını, ümumən, 60-70-ci illərdəki bütün ədəbi-estetik uğurları təkcə gənc pleyadanın gərgin yaradıcılığı və coşqun ədəbi fəaliyyəti ilə bağlamaq, məhdudlaşdırmaq olmaz. Ümumittifaq miqyasında 1950-ci illərin sonlarından etibarən başlanan və getdikcə geniş vüsət alan bu möhtəşəm prosesdə o dövrün poetik gəncliyi ilə bir sırada görkəmli və tanınmış sənətkarlar da fəal iştirak edirdilər. Əgər biz bu mühüm ədəbi həqiqəti nəzərə almasaq və olduğu kimi etiraf etməsək, həmin dövrün bədii gedişatını və ümumi estetik obrazını obyektiv şəkildə ehtiva edə bilmərik. Gənc altmışıncılarla bir sırada böyük rus ədəbiyyatında Anna Axmatova, Boris Pasternak, Aleksandr Tvardovski, Vladimir Luqavskoy, Mixayil Şoloxov, Leonid Leonov, Aleksandr Soljenitsın, İlya Selvinski, Samuel Marşak, Yaroslav Smelyakov və başqaları bədii fikrin ictimai-siyasi buxovlardan və qəliblərdən azad olunması uğrunda gərgin mübarizə aparırdılar. Bu proses Azərbaycan ədəbi mühitində də təxminən bu cür ədəbi format və istiqamətdə davam edirdi. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Rəsul Rza, Osman Sarıvəlli, Mehdi Hüseyn, Mir Cəlal, İlyas Əfəndiyev, Mirzə İbrahimov, Əhməd Cəmil, İsmayıl Şıxlı, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qabil, Əlağa Kürçaylı və başqaları milli bədii fikrin dirçəlişi və demokratikləşməsində poetik gəncliyə hər vasitə ilə yardım edirdilər. Bütün bunları nəzərə alaraq, qəti şəkildə söyləmək mümkündür ki, bir çox istedadlı sənətkarların müxtəlif vaxtlarda və müəyyən münasibətlər müstəvisində “mikrorenessans” (Andrey Voznesenski) adlandırdığı 60-cı illərdəki bədii yüksəliş, demək olar ki, bütün ədəbi nəsillərin gərgin mübarizəsi, birgə zəhməti və bir-birlərindən güc alaraq Vətəni, azadlığı sevən ustad və şagirdlərin nurlu istiqbala, aydın gələcəyə ünvanlanmış ilhamlı yaradıcılığının nəticəsi idi.

Amma bu da inkarolunmaz bir həqiqətdir ki, ictimai həyatda köklü dəyişikliklər həmişə gənc nəsil tərəfindən həyata keçirilir. Cəmiyyətdə gənc və yeni adamlar peyda olmasa, insanın güzəranında və həyat tərzində, ictimai qaydalar və münasibətlər mahiyyətində ciddi yeniliklərin baş verməsi son dərəcə çətindir. XX yüzilin görkəmli mütəfəkkirlərindən biri, ispan filosofu Xose Orteqa-i-Qassetin aşağıdakı mülahizələri bu cəhətdən diqqəti çəkir: “Dünyada köklü dəyişikliklər baş verməsi üçün müəyyən adam tiplərinin yerinə (həm qadınlar, həm də kişilər nəzərdə tutulur) başqa cür adamlar gəlməlidir; yəni həyatı duyma və hissetmə qabiliyyəti başqalarından fərqlənən özünəxas insanların peyda olması zəruridir. Bu isə naturalistlərin xüsusi insan “növü” hesab etdiyi

nəsil deməkdir. Nəsli formalaşdıran fərdlər yalnız onların özlərinə məxsus xüsusiyyətlərlə – psixologiya, zövq və adətlərlə dünyaya gəlirlər. Bunların hamısı birlikdə nəslin simasını təyin edir, onu əvvəlki nəsillərdən fərqləndirir" [7, s.11]. Böyük filosofun vurğuladığı bu qanunauyğunluq cəmiyyət həyatının tərkibi və üzvi hissəsi olan ədəbi həyata da tam mənada aiddir. İctimai-estetik təfəkkürdə mühüm dəyişikliklərin baş verməsində yeni nəsillərin həlledici təsiri ilə bağlı dünya ədəbiyyatından istənilən qədər misallar gətirmək olar. Uzağa getmək lazım deyil, elə yaxın keçmişimizin təcrübəsi də bu dediklərimizi təsdiq etməkdədir. Bəli, 60-cı illərdə sabiq İttifaq ədəbiyyatında baş verən yenilənmə prosesi fikrimizə parlaq sübutdur. Öz mahiyyəti və miqyasına görə, ümumən, dünya söz sənətində də müəyyən iz qoymuş həmin möhtəşəm yeniliklərin ədəbi taleyini də gənc qələm sahibləri – bədii təfəkkür aləminə təzəcə qədəm qoymuş gənc yaradıcı qüvvələrin əzmkar və fədakar axtarışları həll etdi. Həmin dövr Azərbaycan və özbək ədəbiyyatında, xüsusən poeziyada yeni estetik vahid və meyarların şəkillənməsi, meydana gəlməsi poetik gəncliyin adı və bədii fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır.

Fransız poeziyasının klassiki Giyom Apolliner "Yeni düşüncə və şairlər" adlanan, mühüm məna və mətləblərdən bəhs edən məqaləsində bədii təfəkkürdə baş verən yenilənmənin mahiyyətinə nüfuz edərək yazırdı: "Əxlaq və bədii təxəyyül sahəsində araşdırmalar və həqiqət axtarışları yeni bədii düşüncənin əsas əlamətləridir" [6, s.53]. Bədii düşüncənin mahiyyətindəki yeniliyi şərtləndirən ikinci mühüm əlamət kimi dahi fransız şairi heyrətə vurğu verir: "Hər şey heyrətdən başlanır. Yeni düşüncənin kökündə heyrət dayanır. Bu, onun tərkibindəki ən canlı və həyati elementdir. Təəccüb – son dərəcə qüdrətli yeni güc deməkdir. Məhz bətnindəki heyrətin gücünə güvənərək yeni düşüncə özündən əvvəlki bədii və ədəbi mərhələlərdən, axınlardan fərqlənir" [6, s.58]. Böyük novator şairin bədii düşüncənin yeniliyi ilə bağlı irəli sürdüyü üçüncü mühüm tezis də elmi dəqiqliyi və düstur dürüstlüyü ilə diqqəti çəkir: "Poeziya və yaradıcılıq son dərəcə yaxın və bənzər şeylərdir: O adam şair adlanır ki, o kəşf etməyi, yaratmağı bacarır, ümumən, insan yaratmağa meyilli varlıqdır. Şair – o kəsdir ki, hətta əzablara qalib gələrək yeni sevinclər tapa və kəşf edə bilir" [6, s.59]. Giyom Apolliner bu müşahidəsində və hökmündə çox israrlı görünür və təkid edir ki, "yeni sevinc" axtarışlarını çox vaxt şairlərə aid edirlər, çünki yeni poeziya daha çox "yeni sevinc" deməkdir. Dahi sənətkarın özünün iştirakçısı olduğu XX yüzilin ilk çərəyindəki yeni bədii düşüncə epoxasının yuxarıda qeyd olunmuş əlamətlərini heç bir çətinlik çəkmədən əsrin ikinci yarısındakı təzə bədii mərhələyə də – altmışıncıların başlatdığı yeni bədii hərəkata da aid etmək olar.

Altmışıncıların tamamilə yeni bədii hərəkatın təşəbbüskarı və "yeni sevinclər"in (Giyom Apolliner) müəllifləri olması onların poetik manifestlərində, ədəbi-estetik proqram yönlü əsərlərində aydınca nəzərə çarpırdı. Altmışıncılıq hərəkatının bayraqdarlarından olan şairlərin yaradıcılığından gətirilən ayrı-ayrı misallar fikrimizi qüvvətləndirə bilər. Məsələn, Məmməd Arazın bu mövzudakı 50-ci illərin sonu 60-cı illərdə yazdığı şeirləri – "Nənəmin kitabı", "Şeirim", "Şeirə gətir", "İlk eşqim, ilk əsərim", "Mən Araz şairiyəm", "Oxucuya məktub", "Şair, gör onları!", "Şair ömrü", "Bəzi şairlərə", "Naməlum qəhrəman", "İstedad", "Fəhlə şeiri", "Şüarlar", "Şair vüqarı", "Poeziya, poeziya", "Azəri nəğməsi" və başqa əsərləri xatırlamaq kifayətdir. Əli Kərimin, Xəlil Rza Ulutürkün, Fikrət Qocanın, Fikrət Sadıqın, Vaqif Səmədoğlunun, Ələkbər Salahzadənin, Nəriman Həsənzadənin, Hüseyn Kürdoğlunun, Sabir Rüstəmxanlının və başqalarının da qələminə mənsub olan bu mövzudakı və yöndəki poetik nümunələri nəzərə alsaq, şairin və şeirin mahiyyəti haqqındakı düşüncələr yeni nəslin yaradıcılığında nə qədər mühüm əhəmiyyət kəsb etdiyini təsəvvür etmiş olarıq. XIX əsrin 20-30-cu illərində rus ədəbiyyatında romantik epoxanın çiçəklənməsi və yüksəlişində misilsiz xidmətləri olan A.S. Puşkin və M.Y. Lermontovun yaradıcılığında sənət və sənətkarın mahiyyəti haqqındakı əsərlərin mühüm yer tutduğunu görkəmli rus ədəbiyyatşünası Lidiya Qinzburq vurğulayır [8, s.164-171]. Tanınmış poeziya mütəxəssisi yazır: "Şair mövzusu – 1830-cu illər rus romantizminin mərkəzi mövzularından biridir. M.Y. Lermontovun 1838-1840-cı illərdə yazdığı əsas vətəndaşlıq şeirləri elə şair haqqındakı şeirlərdir: "Şair", "Özünə inanma", "1 yanvar", "Jurnalist, oxucu və yazıçı".

Romantizm üçün şair mövzusu – birbaşa şairin (seçilmiş şəxsin) cəmiyyətlə, xalqla, kütlə və qara camaatla münasibətləri mövzusu deməkdir. Şairin fəlsəfi və ictimai mövqeyini məhz belə

müxtəlif anlayışlarla səciyyələnən müxtəlif məzmunlu qarşılıqlı münasibətlər əks etdirir" [8, s.167-168]. Təxminən on il əvvəl yazılmış – 1826-1830-cu illərdə qələmə alınmış Puşkinin məşhur "Peyğəmbər", "Şair", "Şair və izdiham" şeirləri yeni poetik epoxanın nəzəri-estetik mənzərəsini və əsaslarını nümayiş etdirirdi [8, s.183-184]. Rus poeziyası tarixində növbəti böyük poetik yenilənmə epoxasında da – "gümüş əsri"ndə də Şeir və Şair haqqında əsərlərin çoxluq təşkil etdiyinin şahidi oluruq. Həmin dövrün poetik həqiqətlərinə dərindən və yaxşı bələd olan Y.N.Tınyanov bu münasibətlə aşağıdakıları bildirir: "... Şeirin özü şairlərin sevimli mövzusuna çevrilmişdi. Pasternakın ən yaxşı şeirlərinin yarısından çoxu elə şeir haqqında idi. Mandelştam "doğma səslər sırası" haqqında yazmaqdan doymurdu, Mayakovski isə "poetik ahəngləri cilovlamaq" və idarə etmək barəsində yazmağı xoşlayırdı" [11, s.169]. O cümlədən rus poeziyası tarixində "gümüş əsr"in dahi nümayəndələri A.Blok, V.Bryusov, S.Yesenin, O.Mandelştam, A.Axmatova, M.Svetayeva və başqalarının şeirin və şairliyin mahiyyəti haqqındakı əsərləri, məqalələri, kitablarını da burada vurğulamaq yerinə düşər. Xüsusən A.Blokun məşhur "O naznaçenie poeta" ("Şairin təyinatı") məqaləsi yeni poetik dövrün nəzəri-estetik proqramı kimi son dərəcə qiymətlidir [1, s.140]. Beləliklə, aydın olur ki, dəyişən və yeniləşən epoxalarda ədəbiyyata təşrif buyurmuş gənc sənət adamlarının yaradıcılığında söz sənətinin mahiyyətinə və ictimai münasibətlər sisteminə həssas münasibət, təzə mövqelərdən yanaşma diqqət mərkəzində durur. Zatən, bu cəhət və keyfiyyətlər sabiq sovetlər dönəmində 60-cı illər poetik prosesinin özünəməxsusluğunu təmin edən və səciyyələndirən xüsusiyyətlər idi.

Əsrimizin ortalarından etibarən bədii təfəkkürümüzdə başlanan ciddi dönüş aradan xeyli keçsə də, bugün də estetik fikri dərindən düşündürməkdə və özünə cəlb etməkdədir. Altmışıncı illərdə böyük imperiyanın söz sənətində, xüsusən Azərbaycan və özbək ədəbiyyatında o vaxtdan başlanan mühüm dəyişikliklərin bədii məna və məndəricəsi əsasən nələrdən ibarət idi? Altmışıncıların poeziyaya cəsarətlə gətirdikləri yeniliklərin estetik mahiyyətini hansı xüsusiyyətlər səciyyələndirir? Ədəbiyyatşünaslıq üçün bügun də aktual olan belə suallara XX yüzilin böyük sənətkarı, mütəfəkkir şair Eduardas Mejelaytisin aşağıdakı son dərəcə dərin mülahizələri ilə cavab vermək istəyirik. Böyük söz ustası yeni pleyadanın poetk özünəməxsusluğunun səbəbini və sirlərini həssaslıqla kəşf etmişdi: "Optimizmin təsdiqi üçün sənətdə iki yol mövcuddur. Birinci yol – gerçəkliyi optimist tərzdə anlamaq və təlqin etməkdən ibarətdir. Bu ən asan və ən sadə yoldur. İkincisi isə bu – dramatik və hətta faciəvi yaşantıların köməyilə, qələbə və məğlubiyyətlər təsviri vasitəsilə optimist xülasəyə aparan yoldur. Eyni qayəvi məqsədi nəzərdə tutan iki cür, hətta bir-birinə əks olan yollar. Gerçəkliyi dramatik və faciəvi yaşantılar vasitəsilə əks etdirmək bu – ağrı, iztirablar, qəm-qüssə vasitəsilə, mübarizə və şübhələr, ümumən, insana xas və son dərəcə insani hiss-duyğuların köməyilə inikas etdirməkdir ki, bu – şairə də, hər hansı bir adama da yaxın və doğma duyulmağı labüddür... Belə poeziyanı, düşünürəm ki, oxucu anlayar və qəbul edər" [4, s.335-336]. Yuxarıdakı fikir və mülahizələrdən aydın olur ki, burada söhbət bədii yaradıcılıqda həyatı əks etdirməyin iki müxtəlif yolu – iki bir-birinə zidd prinsip haqqında gedir. Əgər söz sənətinin mahiyyətini və taleyini təyin etməkdə bu estetik prinsiplərin nə dərəcədə əvəzsiz rol oynamasını nəzərə alsaq, onda bu məsələnin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini təsəvvür edə bilərik. Dərindən fikir versək, yetmiş illik sabiq sovet ədəbiyyatının bədii-qayəvi və poetik-fəlsəfi böhranının, öz dövrünün, əsasən, yalan ədəbi sənədinə və saxta salnaməsinə çevrilib qalmasının baş səbəblərindən biri də son nəticədə bədii yaradıcılıq prinsiplərinin qeyri-həyatiliyinə – düzgün seçilməməsinə gedib çıxır. Xüsusən 30-50-ci illər sabiq İttifaq xalqları ədəbiyyatında, E.Mejelaytisin yuxarıda vurğuladığı birinci inikas yolunun – "gerçəkliyi optimist anlamaq və təlqin etmək" prinsipinin hökmranlıq etdiyi dövr nə qədər acı və xoşagəlməz nəticlərə gətirib çıxardığı elmi ictimaiyyətə yaxşı məlumdur. Konfliktsizlik "nəzəriyyəsi" və vulqar sosiologizm "təlimatı" ilə "silahlanmış" həmin təlqinin və inikas prinsipinin tərəfdarları ədəbiyyatın real həyatdan və insandan uzaqlaşmasına, ümumən, böyük bir ictimai-siyasi məkanda söz sənətinin öz simasını itirməsinə səbəb oldular.

İctimai gerçəkliyi dramatik və tragik yaşantılar vasitəsilə təsvir etmək, yəni E.Mejelaytisin təkid elədiyi ikinci və əsas estetik inikas prinsipi sabiq sovetlər ədəbiyyatında 60-cı illərdən etiba-

rən şəkillənməyə başladı. Xüsusi qeyd etməliyik ki, yalnız İttifaq xalqları ədəbiyyatında deyil, hətta rus ədəbiyyatının özündə də həyatı əks etdirmək prosesində yeni bədii inikas prinsiplərinə keçid 60-cı illərə aid olan hadisədir. O cümlədən özbək və Azərbaycan ədəbiyyatında, ələlxüsus da poeziyada "gerçəkliyi optimist təlqin etmək" təcrübəsi, bu qeyri-həyati və qeyri-bədii "ənənə"nin hakim ədəbi mövqeyi məhz bu dövrdən başlayaraq sona çatır və bədii təfəkkürdə yeni estetik təlqin üsulunun doğulmasına yol açılır. Abdulla Aripov və Məmməd Araz pleyadasının poetik özünəməxsusluğunu şərtləndirən və səciyyələndirən də məhz bu estetik keyfiyyət və xüsusiyyətlər idi.

Yeni poetik eranın banisi Aligeri Dantedən bəhs edərkən ötən əsrin qüdrətli şairlərindən biri – Osip Mandelştam "Dante haqqında söhbət" tədqiqatında bədii yaradıclığın təbiətini və mahiyyətini dərk etmək nöqteyi-nəzərindən son dərəcə qiymətli fikirlərini irəli sürür. Müəllifin mühüm və maraqlı mülahizələrindən biri belə səslənir: "Dantenin gələcəklə və yeni Avropa poeziyası ilə əlaqələrini aşkara çıxaran yeni şərhlər yaratmaq zəruridir" [9, s.166]. Başqa bir münasibətlə isə müəllif aşağıdakıları yazır: "Dantenin nəğmələrini müasirliklə müqayisə etmədən oxumaq ağılasığmazdır. Çünki onlar bundan ötrü yaradılıb. Onlar gələcəyə tuşlanmış mərmilərdir" [9, s.130]. Bütün bu mülahizələrdən sonra isə Dante poeziyasının dünya miqyasında bəlkə də ən müdrik araşdırıcılarından biri gözlənilməz fikri ortaya atır. O, yeni Avropa poeziyasının patriarxı haqqında yalnız ilk baxışda təzadlı duyula biləcək mülahizəni vurğulayır: "Dante – anti-modernistdir. Onun müasirliyi bitməz-tükənməz, sayagəlməz və sonsuzdur" [9, s.131].

Məhz bu nöqteyi-nəzərdən altmışıncıların yaradıcılığına yanaşsaq və onların poetik bioqrafiyasını ümumiləşdirməli olsaq, deməliyik ki, onlar estetik inqilabçılar və kəskin poeziya islahatçıları deyildilər. Altmışıncılar 30-cu illərdəki modernizm dalğasından sonrakı epoxanın övladları kimi ədəbiyyata təşrif buyurmuşdular. Altmışıncılar – "anti"-modernist idilər. Amma onların sırf modernist və yenilikçi olmaması bu dövr poeziyasının müasirlik dərəcəsinə və gələcəklə əlaqələrinə zərrə qədər təsir etməyib. Bu cəhət və keyfiyyət altmışıncıların yeni poetik epoxanın banisi və yaradıcısı olmalarına da qətiyyən mane ola bilmədi. Zira, XX yüzilin dahi sənətkarlarından biri Boris Pasternak uzaqgörənliklə söylədiyi kimi, "Talant – est yedinstvennaya novost, kotoraya vseqda nova" [2, s.151], yəni istedad həmişə yeni ola bilən, köhnəlməyən yeganə yenilikdir. Həqiqətən də, yeniliyini və özünəməxsusluğunu itirməmək istedadın əsas əlamətlərindən biridir. Böyük sənətkarın kəşf etdiyi bu qanunauyğunluq bütün zamanların istedadlarına, o cümlədən 60-cı illəri öz dövrü və gələcək nəsillər üçün təzələşdirən məşhur yeni pleyadaya da aiddir. Altmışıncılar, sözün əsl mənasında, böyük və həqiqi istedad sahibləri idilər. Həmin dövrün poetik özünəməxsusluqları ilə XXI yüzilin ədəbi gedişatını bağlayan mənəvi-estetik əlaqələri kəşf etmək isə çağdaş və gələcək ədəbiyyatşünaslıq elminin mühüm vəzifələrindən biridir.

Beləliklə, altmışıncıların yaradıcılığının kompleks halında və geniş müstəvidə ilk dəfə olaraq elmi tədqiqata cəlb edilməsi – çağdaş bədii təfəkkürdəki mühüm keyfiyyət dəyişiklikləri tarixini, yeni estetik dünyagörüşü və əhvali-ruhiyyəsinin meydana gəlmə prosesini, yeni lirik qəhrəmanın mənəvi aləmi və mövqeyinin formalaşma mərhələlərini, yeni bədii inikas sisteminin yaranması və yeni poetikanın ərsəyə gəlməsini, ümumən, hazırkı poeziyada yeni estetik meyar və dəyərlərin inkişaf dinamikasını ardıcıl şəkildə araşdırmağa imkan verir. Bütün bu söylədiklərimiz və başqa ədəbi-həyati əhəmiyyətə malik məsələlər qeyd etdiyimiz problemin elmi-estetik əhəmiyyətini və aktuallığını səciyyələndirir.

Yeni poeziyaya münasibətin birmənalı olmadığını xüsusi vurğulamaq zəruridir. 60-cı illər rus ədəbi tənqidində, özbək və Azərbaycan tənqidçilərinin yaradıcılığında yeni şeir nümunələri müxtəlif cür dəyərləndirilirdi. Əgər qabaqcıl və demokratik tənqid düşərgəsi gənc nəslin əsərlərində özünü büruzə verən yeni estetik inikas prinsiplərini ardıcıl şəkildə müdafiə edirdisə, siyasi-sosioloji düşərgəyə mənsub konservativ tənqidçilər isə yeni lirikləri, xüsusən optimist inikas qəliblərinə uyğunlaşmayan gənc müəlliflərin poetik təcrübələrini çox böyük tələbkarlıqla nəzərdən keçirir, onların əsərlərini ideyasızlıqda, həyati olmamaqda, ictimai gerçəkliyi təhrif etməkdə günahlandırırdılar. Yeni rus poeziyasının A.Voznesenski, Yevg.Yevtuşenko, B.Axmadulina, N.Rubtsov, V.Vısotski və başqa məşhur nümayəndələri, yeni Azərbaycan lirikasının Ə.Kərim, M.Araz, X.R.Ulutürk, V.Səmədoğlu, R.Rövşən kimi parlaq istedadları, yeni özbək lirikasının E.Vahidov,

A.Aripov, R.Pərfi, Ç.Erqaş, H.Xudayberdiyeva və başqa özünəməxsus qələm sahibləri konservativ tənqidin zərbələrinə dəfələrlə tuş gəlmişdilər. 60-70-ci illər ədəbi tənqidinin və ümumən, rəsmi dövlət məfkurə sisteminin yeni ədəbiyyata, eyni zamanda onların 70-80-ci illərdəki davamçılarına ziddiyyətli və inkarçı münasibəti uzun illər ədəbi həyatda öz təsirini göstərdi və sabiq imperiya dağılana qədər ədəbi-estetik təfəkkürdə əks-səda verdi.

XX-XXI yüzillərin fəlsəfi-estetik fikrinin patriarxı akademik Yuri Borev müdrik yaşında çap etdirdiyi ilk şeirlər kitabına yazdığı ön sözdə son dərəcə maraqlı mülahizələr irəli sürür: "Bu şeirlər məcmuəsi "sonuncu mogikanlardan birinin" imkan daxilində zəmanəmizə və gələcəyə ədəbi müraciətidir. Bu şeirlər sonuncu altmışıncının bütün ömrü boyu yaratdıqlarıdır" [3, s.5]. Özünü fəxrlə sonuncu altmışıncı adlandıran və öz dövrü ilə bu dəfə poetik dialoqa girən böyük alimin ədəbi nəsli haqqında söylədiklərini, məntiqi və təbii şəkildə bütün altmışıncılara aid etmək, bizcə, ədalətli olardı: "Bu topluda əks edənlər təkcə mənim yanılmalarım və mənim nəslimin tarixi əlləməçiliyi deyil, eyni zamanda, ümid edirəm ki, onun xeyirxah və şanlı xüsusiyyətləridir. Mənim nəslim XX yüzilin ən böyük nəsillərindəndir, bəlkə də bütün çatışmazlıqları və yüksək cəhətləri ilə birlikdə Sovet sivilizasiyası və mədəniyyəti adlanan böyük eksperimentin ən yaxşı bəhrələrindən biridir" [3, s.6].

Altmışıncıların istedadlı nümayəndələrindən biri Bulat Akudcava isə özünün də mənsub olduğu poetik nəslin ictimai-fəlsəfi obrazını aşağıdakı kimi səciyyələndirir: "Təbii ki, "altmışıncılar" öz zəmanələrinin övladları idi. Onlar inqilabçı deyildilər, sadəcə olaraq namuslu insanlardı. O şəraitdə yaşamaq istəmirdilər. Rejimi devirməyi düşünmürdülər, onu azacıq da olsa insaniləşdirməyə çalışırdılar ki, bir az asudə nəfəs ala bilsinlər" [5].

Altmışıncıların sabiq ümumittifaq miqyasında çox tanınmış nümayəndələrindən və liderlərindən biri, o dövrün ədəbi hərəkatı və öz nəslinin bədii uğurları barəsində bir sıra qiymətli məqalələrin müəllifi olan xalq yazıçısı Anarın estetik düşüncə və mülahizələri XX yüzilin böyük poetik həqiqətlərindən birini dərindən anlamağa yardım edə bilər: "Kim nə deyir-desin, 60-cı illərdə cəmiyyətin ovqatını, ab-havasını dəyişməkdə, insanların şüurlarının durulaşmasında, onları daha azad düşünməyə sövq etməkdə, beləliklə də, zəmanəni xeyli qabaqlamaqda "altmışıncılar" ədəbi nəslinin müstəsna rolu danılmazdır. Bu nəsil şairləri arasında ən çox təsir gücünə malik olan, cəmiyyətin ən çox marağını cəlb edən də Yevgeni Yevtuşenko idi" [5].

## Nəticə / *Conclusion*

Sizin nəzərinizə təqdim etdiyimiz bu məqalədə yaxın keçmişimizin, yəni 60-70-ci illərin hökmran ictimai-ideoloji və fəlsəfi qənaətləri ilə uzun müddət mübahisə və mübarizə edən müəlliflərin yaradıcılığına xüsusi vurğu verildiyini, müxtəlif məfkurəvi məhdudiyyətlər və qadağalar, söz sənətinə siyasi-rəsmi münasibətlərlə barışmayan şairlərin əsərləri diqqət mərkəzində durduğunu vurğulamağı zəruri sayırıq. Müəllifin fikrincə, "altmışıncılıq" ruhu və zamanın estetik özünəməxsusluğu məhz həmin sənətkarların yaradıcılığında, xüsusən onların müxalif məzmunlu və polemik ruhlu əsərlərində daha yaxşı əks etmişdir.

## Ədəbiyyat / *References*


1. Blok, A. O literature. – Moskva: Xud. literatura, 1980.
2. Boris Pasternak. Ob iskusstve. – Moskva: Xud. literatura, 1990.
3. Borev, Yuri. Krasota i tragizm bıtiya. (Vmesto predisloviya). Bax: Vremena. Sbornik stixov. – Baku: Sabax, 2012.
4. Eduardas Mejelaytis. Kontrapunkt. – M., 1971.
5. "Ədəbiyyat qəzeti", 21 iyul 2012.
6. Giyom Apolliner. "Novoe soznanie i poetı". Bax: Pisateli Fransii o literature. – Moskva: Proqress, 1978.
7. Xose Orteqa-i-Qasset. Dequmanizasiya iskusstva. – Moskva: Raduqa, 1991.

8. Lidiya Qinzburq. O lirike. İzdanie vtoroe, dopolnennoe. "Sov. pisatel" Leninqradskoe otdelenie, 1974.
9. Osip Mandelştam. Slovo i kultura. – Moskva: "Sov. pisatel", 1987.
10. Pablo Neruda. Slova... Bax: Pisatelı Latinskoy Ameriki o literature. – Moskva: Raduqa, 1982.
11. Tınyanov, Y.N. Poetika. İstoriya literaturı. Kino. – Moskva: Nauka, 1977.

## Литературное движение эпохи: шестидесятые и шестидесятники

**Яшар Гасымбейли**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: yashargasimov@mail.ru

**Резюме.** В статье рассматривается значительное национально-нравственное пробуждение и динамика развития возрождения с середины 50-х годов прошлого века у народов Советского Союза. Автором сделана попытка анализа широкого отображения в азербайджанской литературе, и особенно в поэзии, процесса обновления в параллельном рассмотрении с литературами братских народов. Потому что в совместных поэтических инновациях в передовой и противоборствующей русской литературе таких выдающихся представителей русской поэзии как А.Вознесенский, Евг.Евтушенко, Б.Ахмадуллина, Т.Рубцов, В Высоцкий и многие другие можно рассмотреть созвучие с успехами в творчестве А.Керима, М.Араза, Х.Р.Улутурка, Ф.Годжа, Ф.Садига, В.Самедоглу и др. в азербайджанской поэзии. Как подчёркивают яркие представители русских и азербайджанских шестидесятников А.Вознесенский и В.Самедоглу, национально-нравственное и культурное возрождение 60-х годов в действительности соответствуют сути «микроренессанса». Несмотря на прошедшие 80 лет с времени острой литературно-нравственной борьбы, мы и сегодня с благодарностью ценим литературно-эстетические заслуги поколений литераторов того периода. В статье внимание привлечено к масштабу эстетики, национальным и интернациональным особенностям поэзии того периода.
**Ключевые слова:** шестидесятничество, национально-нравственное и литературное возрождение, шестидесятники, А.Вознесенский, Евг.Евтушенко, Б.Ахмадуллина, А.Керим, М.Араз, Х.Р.Улутурк